# Birinci sinifdə "Cəmiyyətin informasiyalaşması" məzmun xəttinin öyrədilməsinin metodiki xüsusiyyətləri

**Telli Əbülfəz qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** songulehmedova2@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. Ə.Q. Pələngov,
p.ü.f.d., dos. S.C.-C. Cəbrayılzadə

**Açar sözlər:** informasiya, kompyuter, texnologiya, tədris, şagird, fənn, cəmiyyət, proses, İKT

**Ключевые слова:** информация, компьютер, технология, обучение, студент, предмет, общество, процесс, ИКТ

**Key words:** information, computer, technology, teaching, student, subject, society, process, ICT

Müasir dövrdə İKT cəmiyyətin inkişafına təsir göstərən vacib amillərdən birinə çevrilmişdir. Cəmiyyətin inkişaf tarixində üçüncü qlobal-texniki inqilab kimi qeyd olunan müasir informasiya texnologiyaları, ictimai həyatın informasiyalaşdırılması prosesi kimi reallaşır. Formalaşan informasiya dünyası daha çox insanı əhatə edərək cəmiyyəti daha da inkişaf etdirir, ilk növbədə münasibətlərin forması və məzmunu dəyişir.

İnformatikanın bir tədris fənni kimi şagirdlərin inkişafında mühüm rol oynayan əsas istiqamətləri aşağıdakılardır:

— dünyanın bütün mənzərəsini öyrənən informasiya anlayışı və informasiya prosesləri;
— informatikanın və informasiya texnologiyalarının əsas terminləri və anlayışları;
— informasiya mədəniyyətinə yiyələnmə;
— kompyuter texnologiyasının strateji imkanları və məhdudiyyətləri;
— kommunikasiyalar üçün yeni informasiya texnologiyalarına yiyələnmə.

Hazırda informatikanın öyrənilməsinə iki mövqedən yanaşılır:

1) informasiya – informasiya texnologiyaları – informasiya ehtiyatları (resursları);
2) model – alqoritm – proqram.

Müasir cəmiyyətin inkişafı – informasiyalı cəmiyyətin yaradılmasını zəruri edir. Belə ki, informasiya cəmiyyətdə elmi-texniki, sosial, iqtisadi, siyasi tərəqqinin zəruri şərti hesab olunur. Dünyada sənayeli cəmiyyətdən informasiyalı cəmiyyətə keçid prosesi başlanmışdır.

Cəmiyyətin informasiyalaşdırılması prosesinin elmi əsasını informatika fənni təşkil edir. İnformasiya əsas anlayış kimi: genetik, geoloji, sinoptiki, yalan, tam, iqtisadi, texniki və s. növlərə malikdir. Bu növlərin məzmunundan isə informasiyanın aşağıdakı müəyyən xassələri yaranır:

— tamlıq;
— vaxtına görə zərurilik;
— düzgünlüyü, həqiqilik;
— müyəssərlik;
— təhlükəsizlik;
— erqonomiklik.

Hazırda ictimai şüurda İKT-dən biznesdə, siyasətdə, idarəetmədə, səhiyyədə, mədəniyyət-

də, elmdə, təhsildə, sənayedə və digər sahələrdə istifadə məsələlərinin aktuallığı və zəruriliyi tam qəbul olunmuşdur. İndiki dövrdə məlumat almaq imkanı güclü olan vətəndaş cəmiyyətinin qurulması gələcək bəşər sivilizasiyasına doğru mühüm bir addımdır. Hazırda İKT-dən geniş istifadə hər bir ölkənin sosial-iqtisadi inkişafına kömək edir və yoxsulluğun azaldırılmasında səmərəli vasitəyə çevrilir.

I sinifdə şagird cəmiyyətin informasiyalaşdırılması məzmun xəttini keçdikdə cəmiyyətdə informasiya və informasiya vasitələrinin əhəmiyyətini anladığını nümayiş etdirir.

— İnformasiya vasitələrini sadalayır;
— İnformasiyanın əhəmiyyətini sadə formada izah edir;
— İnformasiya vasitələrinin rolunu izah edir.

Məsələn, dərsdə şagirdə aşağıdakı şəkil təqdim edilir və sfetoforun işıqlarını komandalara uyğun rəngləmək tələb edilir.



**1 – dayan**
**2 – diqqət**
**3 – irəli**



**1** **2** **3**

Şagirdlər artıq bilirlər ki, sfetoforun qırmızı işığı dayan informasiyasını verir. Deməli, 1 saylı sfetofor qırmızı rəngdə rənglənməlidir. Sfetoforun sarı rənsi diqqətli olmaq informasiyasını verir. Sfetoforun yaşıl rəngi irəli informasiyasını ızah edir. Beləliklə şagirdlər çalışmanın şərtinə əsasən sfetoforun dairələrini aşağıdakı kimi rəngləyirlər:



**1** **2** **3**

Beləliklə, şagirdlər çalışmanın həllində həyat təcrübələrinə əsasən aldıqları informasiyadan istifadə edirlər.

İbtidai siniflərdə cəmiyyətin informasiyalaşdırılması məzmun xəttinin öyrənilməsində müasir texnologiyalardan istifadənin nəticələrinin analizi deməyə imkan verir ki, şagirdlər təhsil prosesinə daha ciddi yanaşır, onların intellektual və məntiqi səviyyəsi yüksəlir, təhsil prosesinə şagirdlərin yanaşması daha da yaradıcı olur. Şagirdlərin fəallığı stimullaşır, prosesin fərdiliyi aydın görünür, dərs prosesinin bütün mərhələlərində nəzarəti sistemləşdirmək imkanı yaranır, tədris vaxtına qənaət hesabına tədrisin informasiya həcmini artırmaq imkanı yaranır.

Bu zaman əsas ümumtəhsil xüsusiyyətləri olan, biliyin qəbulu və onun mənimsənilməsi bacarığı, məqsədin planlaşdırılması və qoyulması, təkrar və yoxlama işlərinə hazırlıq, test yazı işlərinin aparılması, məqsədə çatma məqsədlərinin araşdırılması və formalaşdırılması, öz işinə qiymət vermə kimi xüsusiyyətlər qazanılır.

**Məqalənin aktuallığı**. İnformatika elminin sürətlə inkişaf etməsi onun məktəb kursu ilə sıx əlaqədardır. İnformatika bir fənn kimi məktəbdə digər aparıcı fənlərlə eyni hüquqlu mövqedə olmaqla yanaşı, onların tədrisi prosesinin sürətlənməsinə kömək edir. Müasir mərhələdə informatikanın tədris fənni kimi rolu yüksək qiymətləndirilir. Belə ki, informatika elmi biliklərin əsas sahəsi olmaqla, ətraf aləmin sistemli şəkildə təhlilini formalaşdıran, informasiyanın alınması, emalı, saxlanması və tətbiqləri proseslərini, metodlarını və vasitələrini öyrənir. Bu baxımdan məqalə aktual hesab olunmalıdır.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müasir dövrdə İKT-nın cəmiyyətin inkişafına təsir göstərən vacib amillərdən olduğu bir daha vurğulanaraq hazırkı cəmiyyətin inkişafında informasiyalı cəmiyyətin yaradılması xüsusi qeyd edilmiş, bu ba-

xımdan informatikanın bir tədris fənni kimi əsas istiqamətləri göstərilmiş, informasiyanın anlayış və xassələrinin təsnifatı verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin tələbə və magistrantları istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Pələngov Ə.Q., Bəşirova Q.İ. İnformasiya və telekommunikasiya vasitələrindən istifadə yolları. ("İnformasiyalaşdırma, kibernetika və informasiya texnologiyalarının müasir problemləri" mövzusunda respublika elmi konfransının materialları). Kibernetika İnstitutu və İnformasiya Texnologiyaları Institutu. Bakı, 2003.
2. R. Mahmudzadə və başqaları. İnformatika. (Dərslik). Bakı, 2016.

**Т.А. Ахмедова**

## Методологические особенности обучения содержательной линии «Публичная информация» в первом классе

### Резюме

Создание информационного общества или, другими словами, социализация общества в целом является мощным инструментом обеспечения всестороннего развития с использованием интеллектуального потенциала страны, борьбы с коррупцией, искоренения нищеты и безработицы и восстановления прозрачности и прозрачности в обществе.

**T.A. Ahmadova**

## Methodological features of teaching the content line "Public Information" in the first class

### Summary

The creation of an information society or, in other words, the socialization of society as a whole is a powerful tool for securing comprehensive development using the country's intellectual potential, fighting corruption, eradicating poverty and unemployment, and restoring transparency and transparency in society.

**Redaksiyaya daxil olub:** 13.11.2019